

# Nəbi Xəzri:

# "Başım çox bəlalar çəkib..."

*Dənizi hədiyyə verirəm sənə...*
*Mən dedim, sən baxdın,*
*Sən gülümsədin,*
*Göylərin şəfəqi düşdü üzünə:*
*Mənsə, göyləri*
*verirəm dedin.*
*Ayrıldıq qəribə hədiyyələrlə.*
*Eşqin göylər qədər mənə əzizdi.*
*Ayrıldıq dənizlə, ağ ləpələrlə.*
*Necə aparasan, dəniz dənizdi...*

Həqiqətən. Ancaq sevənlər bir-birinə belə nəhəng, ucu-bucağı bilinməyən, dəyəri ölçüyə gəlməz hədiyyələr verə bilər. Elə bir hədiyyə ki, həm var, həm yoxdu, həm nəhəngdi, elə bir nəhəng ki əlinə almağın qeyri-mümkün, eyni zamanda qəlbinə sığacaq qədər "kiçik". Sənin olmayan, amma gözlə görüləsi, ətri duyulası bir hədiyyə...

Yolboyu bu şeri öz-özümə deyir və düşünürdüm. Düşünürdüm ki, o da nə vaxtsa bax beləcə sevirdi. Sevgisini misralara köçürürdü.

Misralar nota köçürdü. Notdan səs tellərinə. Və dinləyicilər eşidirdi; "Külək" - Sözləri Nəbi Xəzrinin, musiqisi Ələkbər Tağıyevindir. Oxuyur...

Elə burdaca dayanaq. Bütün yaş dövrlərində hamının sevdiyi, indinin özündə belə sevə-sevə dinlədiyimiz bu və onun kimi neçə-neçə mahnının mayasını təşkil edən incə, hər misrasından şirinlik süzülən şerlərin müəllifi ilə görüşəcəyik. Onun qonağı olacağıq. Xalq şairi Nəbi Xəzrinin.

Xeyli müddətdir, bu arzu, bu istək bizi dinc buraxmırdı. Amma bir az xəstəhal olduğundan istirahətini pozmaq istəmirdik. Bizimlə telefonda danışanda da səsində təngnəfəslik duyulurdu. "Yataqdayam. Ayaqlarım ağrıyır" dedi. Bununla belə "İstəyirsinizsə, gəlin" söylədi. Getdik.

İçəri daxil olanda uzandığı yerdəcə başını azacıq qaldırıb qapıya tərəf boylandı. Görünür, mənzilində özünə elə məkan seçib ki, qapıdan içəri daxil olanı görsün. Bu artıq tənhalıq demək idi...Dikəlib yataqdaca əyləşdi. Son zamanlar əksər qələm əhlinin, ziyalının adət etdiyi şərtdən başladı:

-Bəri başdan razılaşaq ki, siyasətdən danışmayacağıq...

***- Siyasət, içi biz qarışıq, hamını bezdirib. Mən Sizinlə siyasətdən yox, şerdən, poeziyadan, sevgidən danışmağa gəlmişəm.***

-Hə?! Nə yaxşı, çox gözəl.

***-Nəbi müəllim, sizə gələndə çox sevdiyim bir şeri öz-özümə təkrar edirdim. "Dənizi hədiyyə verirəm sənə..."***

*(Birdən-birə dirçəldi. Gözləri güldü. Həmin dəqiqə ardını deməyə başladı. Onun öz ifasında bu şer daha gözəl səslənirdi. Şeri dedikcə hiss olunurdu ki, öz aləmindədi. Keçmişə qayıdıb. Şerin son misrasını deyəndə kövrəldi, səsi qırıldi, gözləri yaşardı...)*

***-Siz Allah, kövrəlməyin...***

*(Yastığının altından dəsmalını çıxarıb gözlərini sildi)*

***- Nə vaxt yazmışdınız bu şeri?***

-Orda beş şerdi. "Susaram dəniz kimi. İstəsən, yanına gələrəm sənin. Gələrəm dəniz kimi. Üzünə incilər çilərəm sənin. Çilərəm dəniz kimi. İstəsən üzündən öpərəm sənin. Öpərəm dəniz kimi. Sevmirəm söyləsən bir axşam mənə, Susaram dəniz kimi, susaram dəniz kimi..."

Bu şerlər yazılıb, 80-ci illərdə. Səhv eləmirəmsə əgər. Çünki ömürboyu yazılan şerlərdi. Hərdənbir bəndi gəlir, hərdənbir misrası gəlir, hərdənbir fikri gəlir. Bu yaxınlarda mən bir mahnı eşitdim, kim yazmışdı musiqisini bilmədim, "Dənizi hədiyyə verirəm sənə..."

Kişi səsi oxuyurdu. Mənim balaca radiom var, açıram, qulaq asıram. Bilmədim oxuyan kimdi. Mahnıda şer sonadək oxundu. Axırı belədi ki, "Onunçün verdin mənə göyləri, məndən göylər qədər uzaq olasan". Gözəl də oxuyurdu. Zəng eləyirəm radioya, deyirlər, vallah, bilmirik. Bu saat diringələr o qədər dəb düşüb ki, yaxşı mahnılara daha yer yoxdu. Srağagün qulaq asıram, mənim "Külək" mahnımı saksafonda çalırlar. Dahi Qara Qarayevlə tez-tez görüşürdük. Bir dəfə görüşəndə dedi, Nəbi, gəl bir neçə mahnı yazaq, səninlə birlikdə. Orijinal

mahnılar olsun. Onlar tarixdə qalacaq. Mənə dedi ki, həmişə sevirəm yazırlar, sən sevmirəm haqqında yaz. Dedim baş üstə. "Külək" şerini yazdım. Şer üç bənddən ibarətdi. Sonuncu bənddə belədi ki, "O ürək ağrıtdı, ürək incitdi. Qəlbimin sevimli nəğməsi bitdi. Sanki məhəbbətim xəyaldı, getdi. Külək, niyə belə əsirsən külək. Səndəmi sevgimi gəzirsən külək?" Bu mahnını indi çoxları oxuyurlar. Amma iki bəndini oxuyurlar, üçüncü qalır. Məsələ elə üçüncü bənddədir ki, səndəmi sevgimi gəzirsən külək? O oxunmayanda bəndlər arasındakı bağlılıq itir. Rəhmətlik Səxavət düzgün oxuyurdu. Mahnı belədi ki, onu oxuyanda insanın ürəyini oxuyursan, insanın hisslərini çatdırırsan. Səhv deyəndə adam ağrıyır. Zəng edib deyə də bilərəm ki, niyə belə edirsiz, ürəklərinə toxunmaq istəmirəm. Sağ olsunlar, oxuyurlar. Amma hər halda mahnı ürək səsidir, şeir ürək səsidir. 5 şeir yazdım. "Tufanlar çağırır", "Külək", "Sahil bağı" idi…Təəssüf ki, o şeirlərə musiqi bəstələmək Qara Qarayevə qismət olmadı. "Küləy"i mən şer kimi oxudum, televiziyada. Rəhmətlik Ələkbər Tağıyev zəng elədi ki, Nəbi müəllim, o "Küləy"i mənə ver. Göndərdim ona, o da çox gözəl mahnı yazdı. Çoxları oxudu. Çox gözəl musiqisi var.

Amma elə ki, o mahnıya qayçı qoyursan, adamın ürəyi parçalanır. Qulaq asa bilmirəm. Ümumiyyətlə, mən son dövrlərdə yazılan mahnılarımızdan narazıyam. Arzu edirəm ki, təbiiləşsinlər. Mahnı insanı düşündürməlidi. Mahnı da, şer də pıçıltıdır. Özü də sevdiyin adama pıçıltıdır. Məhəbbəti qışqıra-qışqıra deməzlər, sev məni, sev məni!..Məhəbbəti pıçıltıyla demək lazımdı. Təəssüf ki, indiki mahnılar qışqırtıdı, bağırtıdı.

***- Gözəl mahnı üçün gözəl də poeziya nümunəsi olmalıdı. Siz deyirsiniz ki, Ələkbər Tağıyev şeri eşitdi, dedi, elə bil mənim ürəyimi yazmısan. Yaxşı mahnı üçün gözəl də şer olmalıdır…***

-Əlbəttə. Düzdü…

***-Sizcə, indi niyə yaranmır belə gözəl poeziya nümunələri?***

- Çoxlu siyasət girib həyatımıza. Çığırtı, bağırtı. O da incəlikləri qayçılayır…

***-Məgər o zaman siyasət yox idi?***

-Var idi. Amma bir xətt üzrə gedən siyasət idi. İndi pardaxlanıb, genişlənib, çoxşaxəlidir.

***- 60-70-ci illərdə bizim şairlər bu cür gözəl poeziya nümunələri yaradırdılar. Bilmirəm, bəlkə də indi bizə elə gəlir ki, o zaman indikindən gözəl idi. Bəlkə də bizlərə, o zamanın uşaqlarına uzaq keçmiş indi şirin gəlir. Amma gözəldi də. Nədən ilham alırdınız ki, belə gözəl poeziya nümunələri yaradırdınız?***

-İlhamı birincisi, gərək hər kəs öz qabiliyyəti çatdığı qədər insanlardan, insanlara münasibətdən, etibarından alsın. Bir də ki, şairin taleyi ancaq onun görünən taleyi deyil. Şair dünyasını dəyişəndən sonra yeni bir taleyi başlayır. Misal üçün Vaqifi vaxtilə qayadan atıblar, oğlunu da, özünü də. Amma sonra o görün, nə qədər parladı. Biz onun şerlərindən öyrənmişik, bu gün də öyrənirik;

Xumar-xumar baxmaq göz qaydasıdı. Lalə tək qızarmaq üz qaydasıdı. Pərişanlıq zülfün öz qaydasıdı. Nə badi-səbadan, nə şanədəndi… Görün necə yaradıb…

*(Səsi qırıldı. Gözləri yaşardı. Bir neçə saniyə dinib-danışmadı…)*

-Şer yazmaq, deyirlər, xəstəlikdi. Amma bu taleyin gətirdiyi xəstəlikdi. Bu xəstəliksiz yaşamaq olmur. Mənim təsəvvür edin ki, 12 yaşım vardı. Bizim bir gözəl müəllimimiz vardı, rəhmətlik Abdulla Şaiqin qardaşıydı. Bir dəfə bizə sual verdi, bütün sinfə ki, kim nəçi olmaq istəyir. Hamı başladı yazmağa. Bu ona baxır, o buna. Hamı bir-birindən köçürür. Mən də yazdım ki, şair olmaq istəyirəm. Aldı müəllimimiz dəftərləri, cavabları oxumağa başladı. Birinci yazıb sürücü olmaq istəyirəm, ikincisi də yazıb sürücü olmaq istəyirik. Üçüncüsü, dördüncüsü…ya bir-birindən köçürüblər, ya da ki, Xırdalanda o vaxtlar sürücülük çox dəbdə idi. Və bu günədək də elə dəbdədi. O vaxt da sürücü çox idi. Minirdilər maşına forsla, sürürdülər, siqnal verirdilər, qızlar da çıxıb baxırdı, bunlar da zövq alırdılar…Mənim yazımı oxuyanda ki, şair olmaq istəyirəm, bütün sinif başladı gülməyə; bəh-bəh, bəh-bəh, Səməd Vurğun gəldi, Ələkbərin oğlu şair olub…Sabir gəldi, durun ayağa baş əyin…Mən də özümü çox təhqir olunmuş saydım, ağladım…

*(Gözləri yaşardı, ağladı. Elə bil 12 yaşlı Nəbi idi…)*

-Durdum, kitabları da vurdum qoltuğuma getdim evə. Çörək də yemədim. Nərdivanla qalxdım evin damına. Onda evlərin damı indiki kimi kirəmitli deyildi. Bizim evin damı hamar idi, dəniz qumu səpilmişdi. O qum da suyu buraxmır. Uzandım, başladım ağlamağa. Ağladım, ağladım… Ağladıqca inamım daha da artdı. Olacağam, olacağam. Və… *(Dərindən ah çəkdi…)*

***- Və oldunuz…*** *(Astaca dedim. Amma o öz aləmindəydi…Məni eşitmədi)*

-Səhərisi gəldim dərsə. Yenə başladılar, "ooo, şair gəldi, Ələkbərin şair oğlu gəldi, yenə başladılar məni dolamağa. Mən fikir vermədim. Dərslərimi oxudum, iki gündən sonra divar qəzetində şerim çıxdı. Yığışmışdılar, divar qəzetinin önünə, a, buna bax e, divar qəzetində şeri çıxıb, o birisi dedi özü yazmayıb e, köçürüb. Yenə təhqir elədilər məni, gəldim evə, çıxdım dama, ağladım, ağladım. Gördüm ki, qum gözlərimin yaşından yamyaş olub, düşdüm aşağı, dedim, aparacam şerlərimi "Azərbaycan pioneri" qəzetinə. Artıq 1939-cu ildi. Allah rəhmət eləsin Nurəddin Babayevə, şöbə müdiri işləyirdi, çox gözəl, mehriban insan idi. Məni yaxşı qarşıladı, aldı şerləri, baxdı, dedi çalışaram çap elətdirim. Bir neçə gün keçdi, yenə bir gün gördüm uşaqlar yığışıb divar qəzeti vurulan lövhənin önünə. Daha gülmək yoxdu. Rəsmi qəzetdi, daha gülmürlər. Ondan sonra məktub aldım ki, sizə qonorar yazılıb, gəlin alın…

***-Nə qədər aldınız?***

-3 manat.

***-Neylədiniz o pulu?***

-Getdim doyunca "marojna" yedim, limonad içdim, sonra da konfet aldım, gətirdim anam üçün. Belə bəlalı günlər idi…

***-Bəs o vaxt şerin altından hansı imzanı yazmışdınız?***

-Nəbi Babayev. Mən 1958-ci ilədək Nəbi Babayev idim. Sonra gördüm ki, çox qəribə toqquşmalar olur. Dostum Nurəddin Babayevin imzası N. Babayev idi, mənimki də. Bir də görürdün, məni tənqid eləyiblər, ona zəng edib, təsəlli verirdilər, ya da əksinə onu tərifləyiblər, zəng edib məni təbrik edirdilər. Deyirdim, vallah mən deyiləm. Fikirləşdim, nə edim ki, toqquşmayaq. Mən Xəzər sahilində böyümüşəm, balıq tutmuşam, çimmişəm, dəniz sahilində bağımız vardı, rəhmətlik atam salmışdı o bağı, Saray bağlarında. Fikirləşirdim ki, elə Xəzri eləyim. Nəbiyə uyğun. Xəzri də şimal küləyidi, Bakının xilasıdı, havanı təmizləyir. Başladım yavaş-yavaş bu imzanı işlətməyə. İnsanlar da öyrəşdi bu imzaya. Külək kimi xatırlamadılar, bir insan kimi xatırladılar…

***- Taleyinizdən razısız, Nəbi müəllim?***

-Razıyam. Amma ağır taleyim olub. Həddindən artıq. 1937-ci ilin hadisələri bizdən yan keçməyib. 5 qardaşım olub…(Kövrəldi, ağladı…) 5-i də gedib. Dayım gedib, Qəzənfər dayım. Elə burda güllələyiblər, Nargin adasına tullayıblar. Rəhmətlik anam çarşabını örtərdi, hər gün piyada Biləcəriyədək gələrdi, qatara minərdi, gələrdi şəhərə, düz gələrdi "KQB"-nin binasına. Pəncərənin qabağında oturardı, gözləyərdi pəncərə açılsın, bir şey öyrənsin qardaşından…Kitabımda yazmışam bunları, pyes də hazırlandı sonra - "Gecə döyülən qapılar"…Bütün qohum-qardaş getdi. Qaldım bir mən, üç bacı, bir də anam. Anam mənə həm ana oldu, həm də atalıq elədi.

***-Atanız o zaman həbs edildi?***

-Yox, atam mənim 5 yaşım olanda vəfat eləmişdi. Onun ölümü çox qəribə olub. Səhər durub, deyib arvad, paltarlarımı yığ, hamama gedirəm. Hamama gedib-gəlib, deyib yerimi sal, özü də üzü qibləyə. Anam deyib nə danışırsan, a kişi…Mən salmıram. Özü salıb yerini, uzanıb, daha bir də durmayıb…İnsan görünür, ölümün gəlişini gözləyir, duyur…Nələr görmədim…

1943-cü ildə əsgər apardılar məni. Heç yaşım da düşmürdü, basdılar məni. Sonra da komissiyada baxıb demişdilər ki, əşşi bunu niyə gətirmisiniz? Revmokarditi var. Buraxdılar məni, heç yol pulu da vermədilər. Qatarın pilləkənində gəldim. Biləcəridə düşdüm, piyada, şinelim cırıq, pilotkam cındır. Bizim ev dağın dibində idi. Ora gedib çıxanacan məni çox görən olacaq, qoy gedim bacımgilə. Onların evi kəndin qırağında idi. Gəldim, qapı açıq idi, girdim içəri, pəncərənin şüşəsini döydüm. Bacım çıxdı, dedi yenə gəlmisən, səhər mən sənə çörək vermədim?! Tanımadı məni, elə bildi dilənçiyəm *(Gözləri yaşardı, yenə ağladı).*

-Başladım ağlamağa…Tanıdı məni, qucaqladı, "atamın balası gəlib", dedi, ağladı. Qışın ortaları idi. Sonra müalicə olundum, xəstəxanada yatdım. Nə isə başım çox bəlalar çəkib…

***-Başınız bu qədər bəlalar çəkdi, qardaşlarınız "xalq düşməni" kimi güllələndi. Bəs siz sonra "rəhbərə" şerlər yazdınız?***

- Yazdım… Bu şerin çox qəribə tarixçəsi var. Mən radioda əmək fəaliyyətinə başlamışdım. Eşitdim ki, radioda diktor müsabiqəsi keçirilir. Radionun binası köhnə Fioletov küçəsində yerləşirdi. Müsabiqədə iştirak etdim, dedilər, səni qəbul edirik. Amma sizə siyasi materiallar oxumaq olmaz. Səsiniz çox lirikdi. Siz ancaq bədii verilişlər oxuyarsınız. Xırdalandan bəzən piyada Bakıya işə gəlirdim. Axşam saat 24:00-da radionu bağlayırdıq. 24:00-dan sonra da komendant saatı başlayırdı. Məcbur olurdum orda qalmağa. Bir divan vardı, başdan-ayağa taxtabiti, bit, birə. Səhərə qədər qaşınırdım. Səhər saat 6:00-da SSRİ-nin himni çalınırdı. Onda gərək mən qalxaydım, səhər verilişlərinin başladığını elan edəydim. O himndən elə zəhləm gedirdi, nifrət edirdim o himnə. Səhərə qədər bit-birənin əlindən yata bilmirdim, səhər açılanda da bu himn məni qaldırırdı. 1944-cü il idi. O vaxt mən Yazıçılar İttifaqına da gedib-gəlirdim, Natəvan klubunda şerlərimi oxuyurdum. Bir dəfə böyük sənətkarımız, ona mən səcdə edirəm, Səməd Vurğun məni çağırdı. Dedi, oğlum, niyə Yazıçılar İttifaqına üzv olmursan? Dedim, mən özümü layiq

bilmirəm. Dedi, mən layiq bilirəm. Sənin şerlərini əzbər bilirəm. Sənin söz haqqında şerin var:

Söz yüksəldər bu cahanda insanı.
Əzizləyər bu cahan da insanı.
Vaxt olar ki, bircə anda insanı,
50 ilin hörmətindən salar söz...

Bu şeri axıradək dedi. Böyük sənətkarın şerimə diqqəti mənə elə təsir etdi ki...Amma yenə getmədim, sonra özləri zəng etdilər ki, məni Yazıçılar İttifaqına üzv qəbul ediblər. Sonra tale elə gətirdi ki, radiodan çıxası oldum. Gəldim "Azərbaycan" jurnalının redaksiyasına. Ənvər Əlibəylinin yanına getdim. Jurnalın redaktoru Məmməd Arif idi. Arif müəllim Səməd Vurğunla danışdı, əlavə ştat ayırdılar, məni işə qəbul etdilər. 1948-ci ildə Leninqrad Universitetində oxudum. Bizim qrupda 20 qız vardı, oğlan bircə mən idim. Mən də bunlardan ehtiyat edirdim. Anam məni yola salanda bərk-bərk tapşırmışdı ki, bax, tək gedirsən, tək də gələcəksən.

***-Qorxurdu ki,orda rus qızı ilə evlənərsiz?***

-Hə...Möhkəm tapşırmışdı mənə. 1949-cu ilin axırında Moskvaya Qorki adına Ədəbiyyat İnstitutuna gəldim. Orda belə idi ki, Yazıçılar İttifaqına üzv olan adamı sorğu-sualsız qəbul edirdilər...

***-Sözünüzü də kəsirəm, ananızın tapşırığına əməl etdiniz?***

-Bəs necə.

***-Nə vaxt evləndiniz, kiminlə?***

-Ailə qurdum 1954-cü ildə.

***-Özünüz sevib-seçdiniz?***

-Hə. Qazaxlı qızı idi. İsa Hüseynovun baldızı. O vaxt isə Bakıda yaşayırdı. Onlara gedib-gəlirdim, bu qızı da onlarda görmüşdüm. Xoşuma gəlmişdi. Sevdim onu. Dedim, cehiz-zad lazım deyil. Cehizi Allah göndərəcək. Sən elə bircə çamadanla gəl. Pal-paltarın varsa, götür, yoxdu, heç o da lazım deyil. Anam dedi, mən qızın əsli-nəcabətini bilməsəm, razılıq verməyərəm. Gərək gedim kəndə. Getdik, qatardan düşdük, kəndə yollandıq. Maşın-zad da yox idi. Anamçün eşşək gətirmişdilər. Orda da eşşəyə minmək qadın üçün ayıb sayılır. Anam dedi ki, mənə dəxli yoxdu, minəcəm. Gəldik İsagilin evlərinə, anası ilə, qardaşları ilə tanış oldu, bir neçə gün qonaq qaldı. Xoşuna gəldi, evləndik. Deməli, mən Leninqradda oxuyanda qış vaxtı idi. Bizim yataqxana elə yerdə idi ki, körpünü fırlanıb keçməliydin. Neva çayı buz bağladığından uşaqlar tez olsun deyə elə çayın üstü ilə keçib gedirlər. Bir gün mən də istədim çayı keçim. Onlar çayın hansı tərəfində qalın buz bağladığını bilirdilər, mən bilmirdim axı. Elə bir-iki addım atmışdım, getdim suyun dibinə. Uşaqlar köməkləşib dartıb çıxardılar məni. Ayaqlarım dondu. Şaxta vurdu ayaqlarımı. Ondan bəri nə vaxt ki isti olur, sonra soyuq düşür, ayaqlarım ağrımağa başlayır. İndi də elə vəziyyətdəyəm.

***-Deməli, bu sizin Leninqradda qazandığınızdı...***

-Hə, Leninqraddan mənə qalan bu xəstəlik oldu. Deməli, Qorki İnstitutunda oxuyanda şairlərlə, yazıçılarla tanış oldum. Bir dəfə Moskva mehmanxanasına getmişdim, orda Mirzə İbrahimovu gördüm. Dedi, burda Azərbaycan dekadası keçiririk, istəyirsən sən də iştirak elə. Etiraz etmədim. Ertəsi gün Sütunlu zalda "26-lar" haqqında şerimi oxudum, rus dilində, kələ-kötür. Xoşlarına gəldi, əl çaldılar. Dedilər, sabah Kremldə çıxışımız olmalıdı, gələrsən. Orda başqa şer oxudum. Mənim bir şerim var, çox zəifdi, "Mənim kəndim" adlanır. Bizim Xırdalan kəndində narın qum çıxır. O qumdan göyümtül stəkanlar düzəldirdilər. Mən də bir şer yazmışdım, məzmunu təxminən belə idi ki, "bizim kənddə belə parlaq, büllur stəkanlar çıxır..."и вождь берет стакан, пёт воду и говорит "спасибо Хырдалану". Onu oxudum, sabahısı gördüm Mirzə müəllim məni bərk axtarır. Dedim nə olub, xeyir ola? Dedi, "kişi" zəng eləmişdi, sənin çıxışına qulaq asıb, xoşuna gəlib şer, soruşdu ki, alə, kimdi o? Demişəm, cavan şairdi. Dedi onu nəzarətdə saxlayın, çox gözəl şair olacaq o, diqqətiniz üstündə olsun. 1950-ci ildə tətilə gəldim. Gördüm məni "Azərbaycan" jurnalının redaksiya heyətinə daxil ediblər. O gündən ta bu günəcən redaksiya heyətində qalıram.

***-Mircəfər Bağırovun o tapşırığından sonra diqqəti hiss elədiniz?***

-Elədim. Bakıya gələn kimi Mirzə müəllim məni çağırdı, o vaxt Yazıçılar İttifaqında şer üzrə məsləhətçi Məmməd Rahim idi. Dedi, Raqimçik, neçə ildi burda işləyirsən? Dedi, Yazıçılar İttifaqı qurulandan işləyirəm. Mirzə müəllim də dedi "çox gözəl, çox əla. İndi cavanlar gəlib, cavanlara yol açmalıyıq. Ərizə yaz ki, öz xahişimlə işdən çıxıram". Əsəbiləşdi. "Məni çıxarırsan. Yaxşı, Mirzə, görərsən". O işdən çıxmaq haqqında ərizə yazdı. Mən işə qəbul olunmaq haqda.

***-Bəs o diqqətin azalmağa başladığını nə zaman hiss elədiniz. Ümumiyyətlə, Sizə diqqət azaldımı?***

*(Gec cavab verdi...)*

-...Nə deyim, vallah... Yazıçılar İttifaqının diqqətini son illər görmürəm.

***-Son illər deyəndə, yəni neçə il?***

-15-20 ildi. Ora getmirəm.

***-Sonuncu dəfə nə vaxt olmusunuz Yazıçılar Birliyində?***



-Yadıma gəlmir. Ərizə də yazmışam ki, məni Yazıçılar Birliyindən çıxmış hesab edin.

***-Niyə?***

-Çünki indi Yazıçılar Birliyi seçmə adamlara xidmət edir. Özləri üçün nəşriyyat açıblar. Kitablar çap elətdirirlər. Bizim orda gözəl kitabxanamız vardı. Dağıldı, getdi. Nə isə mən onların dalıyca danışmaq istəmirəm. Allah onlara insaf versin. Heç bir şey də ummuram. Yaşayışım da... vaxtilə lap gözəl idi. Rəhmətlik Heydər Əliyevin mənə münasibəti çox yaxşı idi. Xətrimi çox istəyirdi. Tez-tez zəng edirdi. *(Çarpayısının yanındakı telefonu göstərir)* Bu telefonu da o çəkdirib. 5 dəqiqənin içərisində. Dedi, a kişi, səni tapmaq mümkün deyil. Hökumət telefonu niyə yoxundu? Dedim, "говорят что, не положено, тот придёт и положет".

***-Həqiqətən də sizin mənzilin nömrəsini tapmaq çox müşküldü. Təsəvvür edin ki, Yazıçılar Birliyində hələ də sizin köhnə nömrələrdi. Heç kim də yenisini bilmir. Hansı mənzildə yaşadığınızı da dəqiq bilmirlər. Biz sizin telefon nömrənizi "Ədəbiyyat" qəzeti əməkdaşlarının köməyi ilə iş yerinizdən öyrənə bildik.***

- Yaxşıdı ki, heç olmasa ordan deyiblər. Yazıçılar Birliyindən indi qanacaq gözləməyinə dəyməz. Sovet dövründə o yaxşıydı ki, kitablar çap olunurdu...

***-Mənzil verirdi, istirahətə gedirdiniz...***

-Hə, yazıçıların istirahət evi vardı, Yaltada, ora gedirdik...1958-ci ildə Yazıçılar Birliyinin sədri Mehdi Hüseyn idi. Qurultayda məni katib təklif elədi. Camaat da səs verdi. Katib oldum. O vaxt məni radiodan qovan həmin cənab bir gün yanıma gəldi. Rəhmətlik anamın bir sözü vardı ki, yaxşılığa yaxşılıq hər kişinin işidi, yamanlığa yaxşılıq ər kişinin işidi. Əsərini tərcümə elətdirmək istəyirdi. Kömək elədim. "Putyovka"nın üstündə istirahət pulu da verdik - "yaradıcılıq müddətində köməklik" məqsədilə. 1965-ci ildə Azərbaycan televiziyasına gəldim. Sədrin birinci müavini oldum. 7 il işlədim. 1974-cü ildə Heydər Əliyev məni "Dostluq" Mədəni Əlaqələr Cəmiyyətinə sədr təyin etdi. Müstəqillik dövründə adını dəyişib elədik "Azərbaycan dünyası". Bu gün də onun prezidentiyəm. Düzdür, imkanlar o illərdə olduğu kimi deyil. Vaxtilə çox yaxşı idi. 6 dəfə Yaponiyada olmuşuq. Müğənnilər, aktyorlar aparırdıq. Mədəni münasibətlər qururduq.

***-Bəlkə, bu qədər çox səfərlərdə olduğunuzdan, dünyanın hər yerində yaşayan azərbaycanlıları gördüyünüzdəndi ki,***

***Əgər ki, yıxılsam, çinar göstərin,***
***Mən ona söykənib Arana baxım.***
***Gözlərim görməsə Göy-gölü verin,***
***Mən onun gözüylə cahana baxım.***

***dediniz..***

***-O şer mənim "Sumqayıt" poemamdandı:***

***Hər yerdə, həmişə sənsən pənahım,***
***Canım-gözüm mənim Azərbaycanım.***
***Sən Günəş, mən isə bir zərrə kimi,***
***Diriykən oğlunam, ölsəm torpağın.***
***Sən ki, döyündürdün mənim qəlbimi,***
***Sən uca çinarsan, mənsə yarpağın...***

***Ümumiyyətlə, şer çox möcüzəli aləmdi. Çox əzablı, əziyyətli aləm. O əziyyətə dözdünsə, xalqın ürəyinə daxil ola biləcəksən. Mənim bir şerim var, yadıma düşür...***

***Bəxtimə yazıldı toylar, düyünlər,***
***Sanki bir şagirddim əli kitablı,***
***Şerli günlərim əzablı günlər,***
***Şersiz günlərim daha əzablı...***

*(Gözləri yaşardı. Ağladı...)*

***-Nəbi müəllim, niyə belə tez-tez kövrəlirsiniz. Belə olmaz. Çox kövrək olmusunuz...***

*(Ağlamsındı)*

-Mən həmişə belə olmuşam...Həyat yoldaşım 57 yaşında vəfat etdi. 18 ildir təkəm...

***-Həyat yoldaşınıza sevgi şerləri yazmısınız?***

-Bəs necə?! Ömür yoldaşım idi. Böyük bir poemam var, ona həsr etmişəm. O qədər şerlər yazmışam ki...

Qarlı bir zirvə olsan,
Ağ buludun olaram.
Dərin xəyala dalsan,
Mən sükutun olaram.
Çəmən olsan əgər sən,
Sərin yağış çilərəm.
Əgər dənizə dönsən,
Sahilə çevrilərəm.
Qovmuşam dərdi-qəmi,
Xoşbəxtin ilki mənəm.
Səslənsən nəğmə kimi,
Sözlərin bil ki mənəm...

*(Bu yerdə Nəbi müəllim göz yaşlarını saxlaya bilmədi...)*

Məni susdursa zaman səni özüm sanaram,
Səhər kimi oyansan, günəş kimi yanaram...

-Bu cür şerlər yazmışam...

*(Onu bu kövrəklikdən bir az çıxarmaq üçün söhbətin mövzusunu dəyişdim)*

***-Siyasətdən danışmayacağımızı şərtləşsək də,***

***hər halda soruşmalıyam ki, Qarabağ problemi ilə bağlı nə düşünürsünüz?***

-15 il Ali Sovetin deputatı olmuşam. 1990-cı ildə Vəzirovla söz-sözə gəlmişdim. Sessiyada durub demişdim ki, bəsdi, xalqı aldatdınız. Deyirsiniz ki, torpaqları xalqa paylayırsınız. Paylamırsız, satırsız. Başımızın altına balış qoymayın. Müharibəni uduzmusunuz, deyin ki, uduzmuşuq. Deyirsiniz, ermənilər qayıdır. Bəyəm biz sevinməliyik ki, ermənilər qayıdır?! Mənim haqqımda film çəkilib, orda bu kadrlar var. Mənim Qarabağla bağlı silsilə şerlərim var. "Şuşa gəlir yuxuma. Nə vaxt görcəm səni, Qarabağ..." Güzəştlə bağlı yazmışam: "Əgər güzəştə getsək, əvvəl güzəşt edək vicdanımızı". O gün İlham Əliyevin çıxışına qulaq asdım. Çox kəskin danışırdı. Hətta teleqram da vurdum ki, "Uğur olsun. Çıxışınız mənə haqq və ədalət nümunəsi kimi səsləndi". Fikrim də budu ki, bu məsələ ancaq hərb yoluyla həll olunacaq.

***-Uzun ömür yaşadınız. Yaxşılar da gördünüz, pislər də. Hansı illəri ömrünüzün ən gözəl illəri hesab edirsiniz?***

-Yaza bildiyim illəri. Son zamanlar əyləşib işləyə bilmirəm. Yazmaq üçün gərək əyləşəsən. Buna da səhhətim imkan vermir. Ayaqlarım ağrıyır...Həm də daha sevgi yoxdu axı. Sevgi olanda insan qüdrətli olur, güclü olur. Adam mehribanlaşır, zərifləşir, xeyirxahlaşır. Sevgi həyatın mayasıdı. İndi mən yetim bir adamam.

***-Niyə elə deyirsiniz, övladlarınız var, nəvələriniz...***

-7 nəvəm var. Həftədə bir dəfə gəlirlər. Hay-küy, çıxıb gedirlər. Ömür-gün yoldaşının yerini heç kəs vermir. 18 ildir mən yetiməm. Adam nə qədər tavana baxar. İnsan sifəti görmürəm...

***-Səhv etmirəmsə, Siz prezident təqaüdü alırsınız...***

-Alıram, bəli.

***-Yəni maddi baxımdan çətinliyiniz yoxdu ki?***

-Nə deyim...Radioda işləyəndə 40 manat maaş alırdım. Bir dünya pul idi. Hər şeyə çatırdı. İndi aldığım yarım aya çatır. O da dərmanlara, həkimə gedir. Güzəran xərcləri.

***-Bəs həkimlər nə deyir?***

-Heç nə demirlər. Daha əl yelləyiblər mənə.

***-Bu dəqiqə nəyə çox ehtiyacınız var?***

-Sevgiyə. Ünsiyyətə.

*Məlahət RZAYEVA*